**FİLOLOGİYA (AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI-050201) İXTİSASININ TƏLİM NƏTİCƏLƏRİ**

**PTN 1.** Azərbaycan dilində və xarici dildə ünsiyyət qurur, müzakirələr aparır, Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, insan haqq və hüquqlarına dair biliklərə sahib olduğunu nümayiş etdirir.

**PTN 2.** Peşəsi ilə əlaqədar İnformasiya və kommunikasiya texnologiyalarından (İKT) səmərəli şəkildə istifadə edir.

**PTN 3.** Peşə etikasına uyğun davranır və sosial həyat bacarıqlarına sahib olduğunu nümayiş etdirir.

**PTN 4.** Sağlamlıq və təhlükəsizliyi, mənəvi, psixoloji, fiziki sağlamlığın qorunması qaydalarına əməl edir.

**PTN 5**. Dilin sistemini, strukturunu, tarixi inkişaf mərhələlərini konkret dil materialı əsasında izah və təhlil edir

**PTN 6**. Ayrı-ayrı dilçilik məktəbləri və onların tədqiqat problemləri haqqında müfəssəl biliklərə malik olduqlarını nümayiş etdirir

**PTN 7.** Dillə bağlı çağdaş dövrdə mövcud olan araşdırma istiqamətlərinə bələd mütəxəssis olduqlarını nümayiş etdirir

**PTN 8.** Bədii ədəbiyyatın ümumi nəzəri prinsiplərini, bədii üslub, metod və cərəyanların ideya istiqamətləri haqqında biliklərə malik olduqlarını nümayiş etdirir

**PTN 9**. Dünya ədəbiyyatının(Qədim Şərq və Qərb) ümümbəşəri tarixi əhəmiyyəti, nümayəndələri haqqında müfəssəl məlumatlara yiyələnir, bütün bunları ədəbi nümunələr əsasında şərh edə bildiklərini nümayiş etdirir

**PTN 10.** Çağdaş dünya ədəbi-nəzəri fikrində mövcud olan əsas təmayüllərlə tanış olur, ədəbi faktları sintez edir, müstəqil fikir yürüdür

**PTN 11.** Azərbaycan ədəbiyyatı tarixinin ayrı-ayrı mərhələrinin xüsusiyyətlərini, fərqli janrlarda yazılmış ədəbi mətnləri mənimsəyir, təhlil edir.

**PTN 12.** Azərbaycan şifahi xalq ədəbiyyatı tarixinin inkişaf yolunu fərqləndirir, müxtəlif janrlarda yazılmış folklor nümunələrinin bədii xüsusiyyətlərini izah edir.

**PTN 13**. Çağdaş ədəbiyyatın ədəbi-estetik əsaslarını, bu dövrdə yaranmış ədəbi mətnlərin xüsusiyyətlərini təhlil edirlər

**PTN 14.** Müasir ədəbiyyatşünaslıq konsepsiyaları ilə tanış olur, çağdaş dövrdə yaranan cərəyan və istiqamətləri müqayisəli şəkildə təhlilə cəlb edir.